DEMOKRASİ PLATFORMU DERGİSİ

Demokrasi Platformu Dergisi
International Refereed Journal
P-ISSN: 1305-4600-E-ISSN:2792-0909
11/36 (Haziran-June 2022): 101-128

# Albaniya/Arranın Varisi Şəki və Səlcuqlu Dövləti İlə Münasibətləri

Sheki As a Successor Of Albania/Arran And Its Relations With Seljukids

**Reşad Mustafa**
Doç. Dr., Azerbaycan Milli İlimler Akademisi, Tarih Enstitüsü,
Assoc. Prof., Azerbaijan National Academy of Sciences, Institute of History, Baku, Azerbaijan
**E-Posta**: reshadmustafa@gmail.com
**ORCID ID**: 0000-0002-8013-2067

**Makale Bilgisi/Article Information**

**Makale Türü / Article Type:** Araştırma Makale / Research Article
**Yayın Sezonu / Pub Date Season:** Yaz-Haziran/ Summer-June
**Geliş/Received**: 22 Şubat/February 2022
**Kabul/Accepted**: 11 Mayıs/May 2022
**Yayın/Published**: 15 Haziran/June 2022.

**Atıf/Cite As**

Mustafa, Reşad. "Albaniya/Arranın Varisi Şəki və Səlcuqlu Dövləti İlə Münasibətləri". *Demokrasi Platformu Dergisi, (2022), 11/36: 101-128*.

**İntihal/Plagiarism**

**İntihal Taraması/Plagiarism Detection:** Bu makale intihal taramasından geçirildi ve intihal tespit edilmemiştir. /This paper was checked for plagiarism. No plagiarism detected.
**Etik Beyan/Ethical Statement**: Bu çalışmanın hazırlanma sürecinde bilimsel ve etik ilkelere uyulduğu ve yararlanılan tüm çalışmaların kaynakçada belirtildiği beyan olunur/It is declared that scientific and ethical principles have been followed while carrying out and writing this study and that all the sources used have been properly cited (Reşad Mustafa)
**Finansal Destek / Grant Support:** Yazarlar bu çalışma için finansal destek almadıklarını beyan etmiştir. / The authors declared that this study has received no financial support.
**Web:** https://www.demokrasiplatformu.com/dergi
**e-mail to**: demokrasiplatformudergisi@gmail.com
**Copyright** © Published by Serkan Yorgancılar, Ankara-Turkiye.

**Öz**

Məqalə Azərbaycanın şimal-qərb hissəsindəki dövlətçilik tarixinin 200-250 illik bir tarixini əhatə edir. Azərbaycan tarixşünaslığında əsasən Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Şirvanşahlar kimi dövlətlərin əhəmiyyəti ön plana çəkilib. Lakin, Şəki məlikliyi, Xaçın məlikliyi, Tiflis əmirliyi, Ani Şəddadiləri kimi dövlətlərin tarixinə nədənsə çox da yer verilməmişdir. Məhz buna görə də bu məqalədə Şəki məlikliyinin tarixi Azərbaycanın tarixinin bir parçası kimi işlənmişdir. Eyni zamanda məqalədə Azərbaycan tarixşünaslığında 705-ci ildə Albaniya/Arran dövləçiliyinin sona çatması fikrinə qarşı əks-tezis səsləndirilmişdir. Bu mənada Şəki məlikləri yeni, bərpa edilmiş Albaniya/Arran dövlətinin hökmdarları kimi nəzərdən keçirilmişdir. Məlum olmuşdur ki, ərəb mənbələrində Şəki məlikliyi adlanan dövlət erməni və gürcü mənbələrində Albaniya, Rani (Aran) kimi adlarla adlandırılmışdır. Məqalədə bir sıra tədqiqatlarda Şəki dövlətinin tamamilə xristian dövləti kimi göstərilməsinə, xristian koalisiyasının tərkibində olmasına əks-fikir irəli sürülmüşdür. Şəkinin bir sıra hökmdarlarının cümə günü müsəlmanlarla, şənbə günü yəhudilərlə, bazar günü xristianlarla ibadət etməsi buradakı multikultural mühitin tələbi idi. Şəki məlikliyinin tarixi hadisələrdə iştirakından bu dövlətin bəzən müsəlman cəbhəsində, bəzən xristian cəbhəsində yer alması, dövlət mənfəətinə uyğun olaraq bir çox hallarda hər iki cəbhəyə bərabər məsafədə durduğu göstərilmişdir. Şəki məlikliyinin bu proseslərdə göstərilən şəkildə iştirakının obyektiv və subyektiv səbəbləri araşdırılmışdır. Heç şübhəsiz tez-tez bu cür cəbhə dəyişdirmələrin səbəbləri arasında idarəçi elitanın xristian, əhalinin mühüm hissəsinin isə müsəlman olması da var idi. Məlum olur ki, Şəkidə yalnız Kaxeti ilə birləşdikdən sonra xristianmeylli siyasət üstün mövqe tutmağa başlamışdır (XI əsrin 20-30-cu illəri). Bu hadisədən sonra da Şəki hökmdarları Aran hökmdarları, ranların (albanların) hökmdarları kimi adlandırılmağa davam etdirilmişdi. Lakin, buna baxmayaraq Şəki məlikliyinin müsəlman dövlətləri ilə münasibətləri pozulmamışdır. Hətta xristianlıq Şəkidə möhkəmləndikdən sonra belə ölkəyə qarşı ən sərt mövqedə xristian dövlətləri olmuşdur. Nümunə kimi ölkəyə qarşı ən təcavüzkar siyasət yeridən Abxaz-Kartli çarlığını göstərmək olar. Xüsusilə bu çarlığın nümayəndəsi III Baqrat və IV Baqratın dövründə münasibətlər daha da gərginləşmişdir. Məhz bu təcavüzkar siyasətin nəticəsində Şəki və Kaxeti birləşmişdi. Bir çox hallarda bu təcavüzkar siyasətdən qorunmaq üçün Şəki hakimliyi müsəlman dövlətləri ilə yaxınlaşmağa üstünlük vermişdir. Bəzən isə Abxaz-Kartli çarlığının təcavüzkar siyasətindən bəzi müsəlman dövlətlərini qorumuşdur. Buna nümunə kimi Şəki məlikliyinin Tiflis əmirliyi ilə, daha sonradan Səlcuqlu dövləti ilə münasibətləri tədqiq edilmişdir. 1037-1038-ci ildə IV Baqratın Tiflisi mühasirəsi zamanı məhz kaxların və ranların (Şəki

məlikliyinin) şəhərin sol hissəsinə çıxışı nəticəsində şəhərin mühasirədən azad olması prosesi sürətlənmişdir. Bu hadisə 1040-cı ildə Şəki məliyi Qağikin IV Baqratın hücumu nəticəsində bir neçə qalasının yandırılması ilə nəticələnir. Şəki məhz bölgədə Səlcuqlu imperiyası ilə əlaqə qurduqdan, I Axsitanın İslamı qəbul etməsindən sonra Abxaz-Kartli təhlükəsini bir müddətliyinə sovuşdurur. Hətta Axsitan Alp Arslanın Abxaz-Kartli üzərinə yürüşündə Tiflis əmiri ilə birgə iştirak edir. Alp Arslanın ölümündən sonra belə Axsitan Səlcuqlu sarayındakı mövqeyini itirmir, Məlikşahın yanına gedərək İslamda olmasını elan edir və öz mövqeyini daha da gücləndirir. Bu mənada məqalədə aşağıdakı qənaətə gəlinmişdir: Şəki məlikliyində idarəçi elitanın xristian olması onun Albaniya/Arran dövlətinin varisi olmasını və bu taxta iddiasının göstəricisi idi. Tiflis əmirliyini III Baqratdan qoruması, yeri gələndə səlcuqlularla Abxaz-Kartli üzərinə yürüşə getməsi isə Şəkinin Abxaz-Kartlinin daxil olduğu sivilizasiya mühitindən daha çox Azərbaycan dövlətlərinin daxil olduğu mühitə yaxın olduğunun göstəricisi idi. Məqalədə əsasən dövrün müasiri və ya bu dövrə yaxın dövrdə yazılan ərəbdilli, gürcü, ermənidilli mənbələrdən istifadə edilmişdir. Bu mənbələrdən istifadə edilərkən müqayisəli təhlil metodunun istifadəsinə diqqət yetirilmişdir.

**Açar sözlər:** *Şəki, Albaniya, Səlcuqlular, Axsitan, Kvirike, Adernerse*

**Abstract**

The article covers a 200-250-year history of statehood in the north-western part of Azerbaijan. In the history of Azerbaijan, the importance of such states as Sajids, Salaris, Ravvadis, Shaddadis, Shirvanshahs was brought to the fore. However, for some reason, the history of such states as Sheki, Khachin, Tiflis, Ani Shaddadi was not given much attention. That is why in this article the history of the Sheki kingdom is studied as a part of the history of Azerbaijan. At the same time, the article contradicts the idea in Azerbaijani historiography that the Albanian / Arran statehood ended in 705. In this sense, the Sheki kings were seen as the rulers of the new, restored state of Albania. It was found out that the state called Sheki Kingdom in Arabic sources was called Albania and Rani (Aran) in Armenian and Georgian sources. The article contradicts the fact that a number of studies show that the Sheki state was a completely Christian state and was part of the Christian coalition. The multicultural environment required a number of Sheki rulers to worship with Muslims on Fridays, Jews on Saturdays, and Christians on Sundays. The participation of the Sheki dynasty in historical events shows that this state is sometimes on the Muslim front, sometimes on the Christian front, and in many cases, in the interests of the state, is equidistant from both fronts. Undoubtedly, one of the reasons for such frequent changes was that the ruling elite was Christian and a significant part of the population was Muslim. It turns out that only after the unification

with Kakheti in Sheki did pro-Christian politics take a dominant position (20-30s of the 11th century). Even after this event, the rulers of Sheki continued to be called the rulers of the Aran, the rulers of the Rans (Albanians). However, despite this, the relations of the Sheki kingdom with Muslim countries have not been broken. Even after the strengthening of Christianity in Sheki, the Christian states took the toughest position against a state. An example is the Abkhaz-Kartli kingdom, which has the most aggressive policy against the Sheki Kingdom. Especially during the reigns of Bagrat III and Bagrat IV, representatives of this state, relations became even more tense. As a result of this aggressive policy, Sheki and Kakheti were united. In many cases, the Sheki preferred an alliance with Muslim states to protect itself from this aggressive policy. At times, it protected some Muslim states from the aggressive policy of the Abkhaz-Kartli kingdom. As an example, the relations of the Sheki kingdom with the Emirate of Tiflis, and later with the Seljuk state were studied. During the siege of Tiflis by Bagrat IV in 1037-1038, the process of liberation of the city from the siege was accelerated as a result of the access of the Kakhs and Rans (Sheki kingdom) to the left part of the city. After the establishment contacts with the Seljuk Empire and the conversion of Akhsitan I to Islam Sheki temporarily removed the threat of Abkhaz-Kartli. Akhsitan even took part in Alp Arslan's march on Abkhaz-Kartli together with the Emir of Tiflis. Even after the death of Alp Arslan, Akhsitan did not lose his position in the Seljuk palace, he went to the Malikshah and declared his conversion to Islam and strengthened his position. The article concludes the following: The belonging to Christianity of the ruling elite in the Sheki kingdom was an indication of its succession to the Albanian / Arran state, and his claim to the Albanian throne. The protection of the Muslim Emirate of Tiflis from christian Abkhaz-Kartli kingdom, the march with the Seljuks on Abkhaz-Kartli kingdom was an indication that Sheki was closer to the environment of the Azerbaijani states than to the environment of Abkhaz-Kartli. In the reserch mainly used Arabic, Georgian, Armenian sources. About use of sources attention was paid to the method of comparative analysis.

**Key words:** *Shaki, Albania, Seljukids, Akhsitan, Kvirike, Adernerse*

## Giriş

Azərbaycan tarixşünaslığında yayılan geniş iddiaya görə 705-ci ildə Albaniya/Arran dövlətinin varlğına son qoyulmuş, bu tarixdən etibarən Albaniya adlı dövlət mövcud olmamışdır. Lakin, elə Moisey Kalankatuklunun Albaniya tarixi mənbəsində qeyd olunan tarixdən sonra dəfələrlə "Albaniya dövləti", "Alban taxtı", "Alban hökmdarları" kimi ifadələrin istifadə edildiyini görünür. Bu

ifadələrin mövcudluğu tarixşünaslıqdakı 705-ci il iddiasının daha güclü, iknaedici sübutlara ehtiyacı olduğunu göstərir. Məqalədə Azərbaycanın şimal-qərbində Albaniya/Arran dövlətinin varlığına 705-ci ildən sonra da davam etdiyi mənbələr əsasında sübuta yetirilməyə çalışılacaqdır. Bu zaman Albaniya tarixi mənbəsi ilə yanaşı müqayisəli şəkildə ərəbdilli, gürcü və ermənidilli mənbələrdən də istifadə ediləcəkdir.

Şəki dövlətinin idarəçi elitasının xristian olması bəzən azərbaycanlı tarixçilər tərəfindən obyektin Vətən tarixinə tədqiqat üçün yadlaşdırılmasına, qonşu ölkə tarixçiləri tərəfindən isə bu dövlətin tarixinin mənimsənilməsinə səbəb olub. Nəzərə almaq lazımdır ki, Şəki Albaniyanın varisi kimi nəzərdən keçirildiyi üçün tədqiqat işində xristianlıq ayırıcı bir nəsnə kimi deyil, Albaniya irsinə varislik və Alban taxtına iddia üçün əsas faktor kimi nəzərdən keçiriləcəkdir. Eyni zamanda bu dövrdə bütün Azərbaycanda olduğu kimi Şəkidə də İslamın yayılması qismən izlənilməyə çalışılacaq, İslam və xristian münasibətləri gözdən keçiriləcəkdir. Mənbələrdəki məlumata əsasən Şəki məlikliyinin əsas zərbəni əsasən Abxaz-Kartli çarlığından aldığı, bu təhlükəni əsasən Səlcuq imperiyası bölgəyə gəldikdən sonra sovuşdurduğu məlum olur. Eyni zamanda Şəkinin Abxaz-Kartli təcavüzünə qarşı müsəlman əmirlik olan Tiflis əmirliyini də zaman-zaman müdafiə etdiyi müşahidə edilir. Bu prizmadan tədqiqatda Şəkinin müsəlman və xristian ölkələri ilə münasibətinə yenidən nəzər salınacaq, müsəlman və xristian mənbələrində haqqında olan qeydlər tədqiq edilərək dövlətin hansı sivilizasiyaya aid olması müəyyən edilməyə çalışılacaqdır. Qeyd edilən istiqamətdən yola çıxaraq əsasən aşağıdakı dövlətlərlə əlaqəyə xüsusi diqqət yetiriləcəkdir: bölgənin müsəlman dövlətləri olan – Şəddadilər, Tiflis əmirliyi, sonrakı dövrdə Səlcuqlu imperiyası, bölgənin xristian dövləti – Abxaz-Kartli çarlığı ilə münasibətlər. Bu mənada dövlətin hansı dərəcədə Azərbaycan tarixinə “aid” olması, həmin dövrdə mövcud müsəlman Azərbaycan dövlətlərinə yaxınlığı və “doğmalığı” tədqiq ediləcəkdir. Tədqiqatda Şəkinin xristian olmasına baxmayaraq ümumi xristian mühitindən uzaq qalmasının səbəbləri, sonradan hökmdarlarının İslamı qəbul edərək İslam hövzəsinə rahat şəkildə keçmələrinin səbəbləri aydınlaşdırılmağa çalışılacaqdır.

## 1. Albaniya/Arran Ərazisində Yerli Knyaz Hakimiyyətlərinin Bərqərar Olması Və Albaniya/Arran Taxtına Şəki Məliklərinin Oturması

681-ci ildə Albaniya/Arran hökmdarı Mehranilər sülaləsindən olan Cavanşir vəfat etdikdən sonra dövlət tamamilə zəifləyir. Cavanşirdən sonra hakimiyyətə gələn Varaz-Tiridat üç millətə - xəzərlərə, ərəblərə və bizanslılara vergi verirdi[1]. Sonrakı dövrdə Albaniya öz yarımasılılıq statusunu da itirmiş, ölkədə xəlifənin canişinləri tam hökmran olmağa başlamışdılar. Knyaz və katolikoslar isə canişinlərin yanında bir növ məşvərətçi rolu oynayırdılar[2]. Mənbələrin verdiyi məlumata görə 711-714-cü illərdə Məsləmə ibn Abdulmalikin xəzərlər üzərinə etdiyi yürüş zamanı geri qayıdarkən onun arxasını Albaniya knyazı arranşah Vaçaqan qoruyurdu[3]. 789-cu ildə Xilafətin Qafqaz canişinlərinin iqamətgahının qəti olaraq Albaniyanın paytaxtı Bərdəyə keçirilməsindən sonra[4] artıq hansısa sülalənin üstünlüyündən söz gedə bilməzdi. IX əsrin II yarısında Arran ərazisində ərəblərdən asılı olan bir sıra knyazlıqlar var idi: Sünik, Ktiş, Varsan, Beyləqan və Şəki (Kürün sağ sahilindəki Şəki) knyazlıqları[5] və s. Lakin, bu knyazlıqların knyazları da rahat hakimiyyət sürə bilmir, tez-tez təzyiq və sürgünə məruz qalır, əsasən Bağdad və ya Şama aparılır, orada İslamı qəbul etməkləri tələb edilir, bir çox hallarda getdikləri bu sürgündən geri dönmürdülər[6]. Sağsahil Şəkinin knyazı Səhl ibn Smbat Babək Xürrəmiyə qarşı apardığı mübarizədə 837-ci ildə Ərməniyyə, Albaniya və İberiya üzərində xəlifədən ali hakimiyyət alsa da[7] bu müvəqqəti idi və Albaniya bir də keçmiş qüdrətinə qovuşa bilmədi.

IX əsrin II yarısında isə Azərbaycanda əsasən Xilafət canişinləri tərəfindən idarə edilən dövlətlər meydana gəlir. Bunlardan ən əhəmiyyətlisi Xilafətin təyin etdiyi keçmiş Arran canişinlərinin nəslindən olan Məzyədilərin qurmuş olduğu Şirvanşahlar, eyni zamanda Azərbaycanı iqta kimi alan Sacilər idi. Bu ərəfədə yerli knyazlardan "mömin knyaz Hammam" tənəzzül etmiş Albaniya çarlığını bərpa

[1] Moisey Kalankatuklu. *Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi.* Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur. (Bakı: "Elm" nəşriyyatı 1993), 186
[2] Bünyadov, Ziya. *Azərbaycan VII–IX əsrlərdə* (Bakı: Azərnəşr, 1989), 104 - 105
[3] Moisey Kalankatuklu. *Albaniya tarixi*, 191; Mahmudov, Yaqub (elmi red.). *Şəki: ən qədim zamanlardan günümüzədək* (Bakı: Turxan NPB, 2020), 84
[4] Bünyadov, *Azərbaycan VII–IX əsrlərdə,*123
[5] Bünyadov, *Azərbaycan VII–IX əsrlərdə,* 176
[6] Moisey Kalankatuklu. *Albaniya tarixi*, 198
[7] Moisey Kalankatuklu. *Albaniya tarixi*, 197

edir[8]. Albaniya tarixinə əsasən bu hadisə 886-cı ildə baş verir. İohan Drasxanakertsi, Asogik və Kirakos Qandzaketsi kimi mənbələrdə Hammam "Şərqin böyük knyazı" və "Albaniya padşahı" adlandırılmışdır[9]. I Qriqor Hammamın Sacilərin əsirliyində olan katolikos II Georqu azad etdirməsi məlumatı[10] Hammamın bölgədəki nüfuzunun göstəricisi idi. Onun oğlu Sevada adlanan Sahaq isə Girdiman və Parisos vilayətlərini də tabe edərək Coraygetin ağası olur[11]. Sevadanın oğlu II Qriqor Hammamın dövründə yəqin ki, Sacilərin artan nüfuzu və Cənubi Qafqaz və ətraflarına etdikləri yürüşlərlə (907-914) əlaqədar olaraq bərpa edilmiş Albaniya ikinci tənəzzül dövrünü keçirir və Kürün sağ sahil əraziləri üzərindəki nəzarətlərini tamamilə itirirlər[12] və yerli, lokal knyazlara çevrilirlər. Bu vaxtdan etibarən onların mərkəzi Kürün sol sahili ilə məhdudlaşmış, mərkəzləri isə Şəki olmuşdur.

Katolikos İohan Drasxanakertsi 909-cu il hadisələrini təsvir edərkən yazırdı ki, o, Yusif ibn Əbu Sacın təqibindən qaçaraq Albaniyanın şərq ucqarlarına getmiş və Qafqazın şimal-şərqində yaşayan hökmdar Adarnersenin yanına gəlmişdi[13]. Bu həmin Adarnersedir ki, ərəb mənbələrində də adı qeyd edilir. Məsudi qeyd edir: "Sanariya ölkəsindən sonra Şəkin (mətndə: Səkin) ölkəsi gəlir. Əhalisi xristiandır. Bunların arasında ticarət və s. ilə məşğul olan müsəlmanlar da vardır. Onların hökmdarı, indi, bu kitabımız yazılan vaxt, Azər ibn Nəbih ibn Məhacirdir"[14]. İbn Rustada isə belə bir məlumat var: "Bu şəhərdə (Xayzan) Azərnərsə adlanan hökmdar var ki, üç dinə etiqad edir. Cümə günü müsəlmanlarla namaz qılır, şənbə günü yəhudilərlə, bazar günü xristianlarla. Kim ki, hökmdar olur, o da qərar verir: "Həqiqətən, bütün bu dinlərdən olanlar öz dinlərinə çağırırlar və düşünürlər ki, həqiqət öz əllərindədir və batil öz dinində deyil. Mən də bütün dinlərə etiqad edirəm, beləliklə bütün dinlərdəki həqiqətə çatıram"[15]. Moisey Kalankatukluda

---

[8] Moisey Kalankatuklu. *Albaniya tarixi*, 200; Bünyadov, *Azərbaycan VII–IX əsrlərdə,* 181; Mahmudov (elmi red.), *Şəki: ən qədim zamanlardan günümüzədək*, 96

[9] Bünyadov, *Azərbaycan VII–IX əsrlərdə,* 181; Степанос Таронский. *Всеобщая история.* Пер. с арм. и об. Н.Эминым. (Москва: Тип. Лазаревского Института Восточных языков. 1864), 110

[10] *Moisey Kalankatuklu. Albaniya tarixi*, 200

[11] *Moisey Kalankatuklu. Albaniya tarixi*, 203

[12] Hacıəli, Şirinbəy. *Şimal–Qərbi Azərbaycan: İngiloylar. (I kitab: ən qədim zamanlardan XIII əsrin ortalarınadək).* (Bakı: Təhsil nəşriyyatı, 2007), 121

[13] Nailə Vəlixanlı (red.). *Azərbaycan tarixi*: 7 cilddə. II cild (III-XIII əsrin I rübü). (Bakı: Elm, 1998), 325

[14] Əl-Məsudi. *Muruc əz-Zəhəb və Məadin əl-Cəvahir*. 1. Cilt, (Beyrut: əl-Məktəbət-ul Asriyyə, 2005), 156; Vəlixanlı, Nailə. *IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları Azərbaycan haqqında.* (Bakı: "Elm", 1974), 61

[15] İbn Rusta, Əbu Ali Əhməd ibn Amr. *Kitab əl-A'laq ən-nəfisə. (Nəfis daş-qaşlar kitabı)* (Leyden: Bril, 1892), 147-148; *Сведения арабских писателей о Кавказе, Армении и Адербейджане.* III. Ибн

hökmdar ardıcıllığı belə qeyd olunur: "Sevadanın (yuxarıda Girdimanı və Parisosu tabe edən) iki oğlu var idi – Qriqor (II Qriqor Hammam – m.) və Davud. Qriqor dünyaya İşxan adlanan Sevadanı və Adarnerseni gətirdi"[16]. Məhz bu Adarnerse ərəb mənbələrindəki Şəki hökmdarı kimi qeyd olunan Azərnərsədir. Beləliklə, X əsrin I yarısında Albaniya kiçilərək şimal-qərb torpaqlarından ibarət qalmış, əksər hallarda mərkəzi Şəki olmuşdur. Bunun nəticəsində Moisey Kalankatuklunun bərpa edilmiş Albaniya adlandırdığı ölkəni ərəb mənbələrində mərkəzinə görə Şəki ölkəsi, gürcü mənbələrində Hereti, erməni mənbələrində isə Albaniya çarlığı adlandırırlar[17]. Adernersenin Sacilərlə münasibəti yaxşı olmuş, 907-914-cü il sacilərin yürüşündə mövqelərini möhkəmləndirmiş, 918-920-ci illər Sacilərin Kaxetiyaya növbəti yürüşü zamanı isə qəsb olunmuş torpaqlarını geri almışdılar.[18].

Gürcü mənbələrində Adernersedən sonra hakimiyyətə gələn İşxan haqqında verilən məlumatlarda aydın olur ki, Şəki məliyi Adernerse iberlərin eristavlar eristavı (valilər valisi) Qurgenin bacısı, şah qızı Dinarla evlənibmiş[19]. Müsəlman ölkələrin əhatəsində olan Adernersenin əvvəllər düşmənçilik etdiyi xristian dövlətlərlə yaxınlıq etmək zərurəti obyektiv səbəblərdən meydana gəlirdi[20]. Mənbə məlumat verir ki, İşxanın anası Dinardan pravoslavlığı (diofizitliyi) qəbul etməsinə qədər, hökmdarların hamısı bidətçi (monofizit) olmuşdular[21]. T.Q.Papuaşvili İşxanın hakimiyyətə gəlməyini 943-cü ildə müəyyənləşdirsə də, bu ili 944-955-ci illər arasında axtarmaq lazımdır[22].

Bu dövrdə Saciləri Salarilər (941-981) əvəz etmişdi və Azərbaycanın tarixi torpağını vahid ərazidə birləşdirə bilmişdilər. İbn Havqəl deyir: "Ərminiyyə, Arran və Azərbaycan ölkələrindən başlayaq. Bu ölkələrə biz vahid ərazi kimi

---

Хордадбех. С 1-21; IV. Кудама. С. 23-34; V. Ибн Руста. С. 35-54; VI. Ал-Якуби. с. 55-63; Перевод и примечания Н.А.Караулова // СМОМПК. вып. 32. (Тифлис: Тип. Канцелярия главноначальствующаго гражд. частию на Кавказе и К. Козловскаго. 1903), 47-49

16 Moisey Kalankatuklu. *Albaniya tarixi*, 203

17 Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 116

18 *Летопись Картли.* Пер., введ. и примеч. Г.В. Цулая. / Ред. кол.: З. Н. Алексидзе, В.Н. Габашвили, Н.С. Джанашиа и др. АН СССР, Ин-т этнографии, АН ГССР, Комис. по источникам истории Грузии. (Тбилиси: Издательство «Мецниереба», Тип. АН ГССР, 1982), 52-53; *Матиане Картлиса.* Перевод, введение и. и примеч. М.Д.Лордкипанидзе. (Тбилиси, 1976), 33-34; Вахушти Багратиони. *История царства Грузинского.* Пер., снабдил предисл., словарями и указат. Н. Е. Накашидзе. (Тб.: Изд. «Мецниереба», 1976), 127

19 *Летопись Картли*, 53; *Матиане Картлиса*, 34

20 Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 125

21 *Летопись Картли*, 53

22 Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 126

baxırıq. Doğurdan da, bunları yalnız bir hökmdar idarə edirdi... İbn əs-Sac, onun nökəri Muflih, Deysəm ibn Sədluyə, Mərzban ibn Məhəmməd – o, həmçinin, əs-Salar da adlanırdı, belə hökmdarlardan olmuşlar"[23]. İbn Havqəl Arran şəhərləri sırasında Şəkinin də adını çəkir: "Arranda Bərdə, əl-Bab və Tiflisdən böyük şəhərlər yoxdur. Beyləqan, Varsan, Bərdic, Bərzənc, Şamaxiyə, Şərvan, Abxaz (Laican), Şəbəran, Qəbələ, Şəkki, Cənzə, Şəmkur və Hunan isə mühüm olmayan vilayətlərdir"[24]. İbn Havqəl qonşu dövlətlərlə yanaşı Şəkinin Salarilərə verdiyi verginin miqdarını da göstərir: Şirvanşah Məhəmməd ibn Əhməd əl-Əzdi- 1 milyon dirhəm, Şəkkinin sahibi Əbu əbd-əl Məlik adı ilə tanınan Əshas (İşxan) – 1 milyon dirhəm, İbn Savarə adı ilə tanınmış ər-Rub hakimi Sənharib – 300 min dirhəm və bəxşiş, Curzan hökmdarı Vacayan ibn Musa – 200 min dirhəm, Əbulhica ibn Rəvvad özünün Əhər və Varzaqan nahiyələrindən 50 min dinar və bəxşiş, Əbu əl-Qasim Xeyzani nahiyələrinin əvvəlki vergi qalıqları ilə birgə 4 milyon dirhəm, Xaçın hökmdarı Sənharib 100 min dirhəm, at və 50 min dirhəmlik bəxşiş[25]. Mənbə məlumatına diqqət etsək görərik ki, İşxanın hakimiyyəti dövründə Xeyzan artıq Şəkinin tərkibindən ayrılaraq Əbu əl-Qasimin idarəçiliyinə verilmişdi. Əgər buraların vergi yükünü əlavə edərsək, o zaman Şəkinin heç də kiçik və zəif olmadığını, əksinə Xayzanla birlikdə, İşxana qədər Şirvanşahlardan daha çox vergi verə biləcək səviyyədə olduğunu iddia etmək olar. Məhz buna görədir ki, Anani Mokasi İşxanı Albaniya hökmdarı adlandırmışdır. O eyni zamanda 958-də Albaniyada antixalkidonçuluğun (monofizitliyin) yenidən qalib gəldiyini göstərir ki, bu da İşxana qarşı monofizit qüvvələrin sui-qəsd ehtimalını istisna etmir[26].

Moisey Kalankatuklunun məlumatına görə İşxanın böyük oğlu Senekərim adlanan Yovhannes çar olur və o, çoxdan yox olmuş çarlığı bərpa edir. İran şahı (burada Salari İbrahim (957/962-979)– m.) onu təmtəraqlı və qiymətli hədiyyələrlə təltif etdi və ona öz atasının tacını və atını göndərdi. Bundan əlavə David (966-1000) adlı yunan magistri (Tao kuropalatı David) də ona tac və çar əbası göndərir və katolikos onun çarlığına öz razılığını verir[27]. Əlbəttə ki, burada çarlığı bərpa

---

[23] İbn Havqəl. *Kitab əl-masalik va-l-mamalik (Yollar və məmləkətlər kitabı).* (Leyden: E.J.Brill. 1872), 236; Vəlixanlı, *IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları,* 105

[24] İbn Havqəl, *Kitab əl-masalik va-l-mamalik*, 243; Vəlixanlı, *IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları,* 110

[25] İbn Havqəl. *Kitab əl-masalik va-l-mamalik*, 254-255; Vəlixanlı, *IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları,* 117

[26] Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 129-131; *Azərbaycan tarixi*: 7 cilddə. II cild (Bakı: Elm, 1998), 326

[27] Moisey Kalankatuklu. *Albaniya tarixi*, 203

edilmiş ərazilər deyildikdə Kürün sol və sağ sahil ərazilərindəki itirilmiş torpaqların bir qisminin yenidən çarlığa birləşdirilməsindən söhbət gedə bilərdi. Güman ki, bu Kürdən cənubda Girdiman və Parisos vilayətləri, Kürdən şimalda isə Xayzan vilayətləri ola bilər[28]. X əsrin II yarısında şəkililərin güclənməsi haqqında "Şirvan və Dərbənd tarixi" də məlumat verir: "Hicri 338/Miladi 992-ci ildə şirvanlılarla şakariylilər (şakavilər-V.F.Minorskiyə görə) arasında Qəbələ rustaqında şiddətli bir müharibə oldu, burada Şirvan hakiminin vəziri Musaddid ibn Həbəşi və onunla birlikdə 400 süvari öldü. Süvarilər Şirvan əsgərlərinin tanınmış simalarından idi"[29]. Göründüyü kimi Şəki məlikliyi bu dövrdə ərazisinə Qəbələni də qata bilmişdi[30].

## 2. Şəki Məlikliyinin Kaxeti İlə Birləşməsi. Səlcuqlu Dönəminə Qədər Şəkinin Bölgə Dövlətləri İlə Münasibəti

X əsrin II yarısında gürcü mənbələri Şəki haqqında geniş məlumat vermirlər. Lakin, XI əsrin əvvəllərindən artıq geniş məlumatlar əldə etməyə başlayırıq. Gürcü mənbəsi Abxaz-Kartli çarı III Baqratın (975-1014) Kaxeti üzərinə etdiyi yürüşdə Şəkini də qeyd edir. III Baqrat Kaxetiya hakimi xorepiskop David öldükdən sonra 1010-1012-ci illər Şəki Kaxetiylə qüvvələrini birləşdirdiyi üçün ikinci dəfə Hereti üzərinə yürüş edəndə şahzadə Dinarı (artıq onun 90-dan artıq yaşı olmalı idi) əsir alır. 1014-cü ildə Kaxeti hökmdarı III Kvirike (1010-1037) abxazların həbsindən azad olur və ölkəsinə qayıdır. Gürcü mənbələri onun adını bir də XI əsrin 30-cu illərində "ranların (albanların) və kaxların çarı" kimi çəkir[31]. Buradan məlum olur ki, artıq o, həm Şəkinin, həm də Kaxetinin hökmdarıdır. Burada əlbəttə ki, Şəki ilə Kaxetinin bərabər əsaslarla birləşməsindən, hətta, Kvirikenin Şəki taxtına dəvət edilməsindən söhbət gedə bilərdi. Çünki, Kvirike Kaxetiyada taxt uğrunda mübarizədə IX əsrin 30-cu illərində sanarlara qarşı mübarizədə qalib gələn

---

[28] Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 132
[29] Минорский, Владимир. *История Ширвана и Дербенда X – XI веков.* (Москва: Изд. вост. лит., 1963), 52
[30] Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 133
[31] Brosset, Marie Felicite (gürcüceden çev. ve notlar). *Gürcistan Tarihi (Eski Çağlardan 1212 Yılına Kadar).* trc. Hrand D. Andreasyan, (Ankara: Türk tarih kurumu Basımevi, 2003), 260; *Летопись Картли,* 66; *Матиане Картлиса,* 47-48

qardabanların (girdimanlılar)[32] nümayəndəsi idi. Girdimanlılar elə albanlara məxsus tayfa idilər, həm Girdiman, həm Kaxetiya Albaniya ərazisi idi. Şəkidə hakim sülalənin başa çatmasından sonra taxt-tacın qanuni varisi kimi ən layiqli namizəd də Girdiman sülaləsinin və bu tayfaların nümayəndəsi olan "ranların (albanların) və kaxların çaı" titulu daşıyan III Kvirikedən başqa biri ola bilməzdi[33]. Məhz buna görə də birləşmiş çarlıq erməni mənbələrində "Albaniya çarlığı", bəzən "Şəki çarlığı" adlanırdı[34]. Paytaxt isə Şəki/Heretinin şəhərlərindən biri olan Telavi şəhəri olur[35].

Hələ Kaxetiylə Şəki birləşməsindən əvvəl, Abxaz-Kartli çarı III Baqratın 1012-1014-cü il yürüşündən sonra Şəddadi əmiri I Fəzl (985-1031) Kaxeti və Hereti/Şəkiyə hücumlar təşkil edirdi. 1032-ci ildə çar Kvirike Kldekar eristavı Liparit Baqvaşi, Kartli eristavı İvane Abazasdze, erməni knyazı David və Tiflis əmiri Cəfər ibn Əli (1032-1046) ilə birlikdə Fəzluna qarşı yürüş təşkil edir. Kvirikenin başçılıq etdiyi qoşunlar Eklesedə qalib gəlirlər[36]. Bu eyni zamanda üç dinli Şəki elitasının şahzadə Dinar və möhtəşəm Kvirikenin fəaliyyəti nəticəsində artıq tam xristian olmasının göstəricisi idi. Güman ki, Kaxetiyanın əhalisinin əksəriyyətlə xristian olması Şəkinin (dövlətdə müsəlmanların olmasına baxmayaraq) xristianmeylli siyasət aparmasına səbəb olmuşdur. Lakin, buna baxmayaraq Şəki məlikliyi yeri gəldikdə müsəlman dövlətlərin müdafiəçisi qismində çıxış edə bilir, onları yadelli xristian hücumlarından qoruya bilirdi. Güman ki, burada bölgənin müsəlman əhalinin nüfuzunun müəyyən rolu olmuşdur.

1037-ci ildə III Kvirikenin Pirdazi dağlarında ovda ikən osetin qul tərəfindən öldürülür[37]. Belə ki, osetin çarı Urdure Kaxetiyə hücum edərkən Kvirike ona qoşunu ilə hücum etmiş və şiddətli döyüşdə kaxlar qalib gəlmiş, şəxsən Kvirike özü Urdureni qətlə yetirmişdi. Məhz, buna görə Kvirike qan intiqamının qurbanı oldu[38]. Kvirike vəfat etdikdən sonra (XI əsr 30-cu illərin əvvəli) Şəki taxtı boş qalır. Varissiz qalan taxta Samşvilde (Şəmşəddil) və Dzorakert knyazı, "torpaqsız"

---

[32] *Летопись Картли*, 82-83; Mahmudov (elmi red.), *Şəki: ən qədim zamanlardan günümüzədək*, 106
[33] Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 139
[34] Мусхелишвили, Давид. *Из исторической географии Восточной Грузии*, (Тб: Изд. «Мецниереба». 1982), 43
[35] Вахушти Багратиони. *История царства Грузинского*, 128
[36] Minorsky, Vladimir. *Studies in Caucasian History*. Cambridge Oriental Series, No.6 (London: Taylors Foreign Press, 1953), 43; *Летопись Картли*, 66; *Матиане Картлиса,* 47-48
[37] *Летопись Картли,* 66; *Матиане Картлиса*, 48
[38] Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 143; Вахушти Багратиони, *История царства Грузинского,* 129

ləqəbli Davidin (989-1048) oğlu Qağik dəvət edilir. Belə ki, "torpaqsız" David sonuncu Kaxeti xorepiskopu Davidin (III Kvirikenin atası) bacısı Zorakersellə evlənmişdi. Kvirikenin bacısı Zorakresellə "torpaqsız" Davidin nigahından Qağik dünyaya gəlmişdi və o, sonradan dayısı III Kvirikenin varisi oldu[39].

Gürcü mənbəsi Şəddadilər üzərində Eklese döyüşündən sonra olanları belə təsvir edir: "Bir müddət sonra Liparit Baqrata (IV Baqrat (1027-1072)) Tiflisi tutmağı məsləhət gördü. Kürün bir sahilindən, çayın aşağı və yuxarısından Tiflisə hücum etdilər, digər sahil, İsani tərəfdən isə kaxların və herlərin qoşunları gəldi". İki il şəhər mühasirəsinə tiflislilər qəhrəmanlıqla müqavimət göstərdilər. Abxaz ordusu mühasirə vaxtı Orbeti və Parsxisi qalalarını ələ keçirə bilir. Tiflis əmiri Cəfər ibn Əli Şəddadi əmiri Ləşkərinin (1034-1049) yanına qaçmağa hazırlaşarkən Şədaddi təhlükəsindən ehtiyatlandıqları üçün Abxaz çarının əyanlarından bəziləri Liparitdən gizlin Baqratı əmirlə sülh bağlamağa razı salırlar. Liparit bu vaxtdan etibarən öz ağasıyla düşmənçilik etməyə başladı[40].

İbn əl-Əsir isə belə deyir: "429 [1037-38]-cu ildə Abxaz padşahı Tiflis şəhərini mühasirə etdi. Tiflis əhalisi onlara qarşı müqavimət göstərdi [Onları şəhərə girməyə qoymadı]. Onlar da şəhər əhalisinin azuqəsi qurtarana kimi Tiflisi mühasirə edib sıxışdırdı. Şəhər əhalisi Azərbaycana adam göndərib müsəlmanları köməyə çağırdı, onlardan ərzaq və pul yardım istədi. Bu arada quzzlar Azərbaycana gəlmişdi. Abxazlar quzzların yaxınlaşdığını və Ərminiyyəyə nələr etmiş olduqlarını eşitdikdə, onların qorxusundan çox sürətlə Tiflisdən çəkildilər"[41].

IV Baqrat Tiflisi ələ keçirməkdən üçün əvvəlcə bu yolda başlıca rəqiblərini zərərsizləşdirməli idi. Bunun üçün o Şəki məliki Qağik ilə döyüşür. 1040-cı ildə Mikel və Qabriel dağı yaxınlığında döyüşdə kaxlara qalib gəlir, bu dağları ələ keçirir və Xornabuc, Pankisi, Ştori və Macel knyazlarını əsir alır. Tianetiyə keçərək Kvirikenin tikdirdiyi Bodoci sarayını yandırır. Lakin, Kaxetinin içinə qədər irəliləyə bilmir. Çünki, Liparit düşmənçiliyə başlayır[42]. Baqratın Kaxetiyə hücumu ərəfəsində Liparitin belə bir hərəkət etməsi güman ki, Qağiklə olan müttəfiqliyinin

39 Мкртумян, Гамлет. *Грузинское феодальное княжество Кахети в VIII-XI вв. и его взаимоотношения с Арменией*, (Ереван, 1983), 114

40 Brosset, *Gürcistan Tarihi*, 278; *Летопись Картли*, 66-67; *Матиане Картлиса*, 48

41 İbn əl-Əsir. *Əl-Kamil fi-t Tarix.* 8-ci cild. (Beyrut, 1987), 226; *İbn əl-Əsir. Əl-Kamil Fi-t-Tarix.* Tərc. M. Əfəndizadə. (Bakı: Az. SSR EA Nəşr., 1959), 139-140

42 Brosset, *Gürcistan Tarihi*, 279; *Летопись Картли*, 66-67; *Матиане Картлиса*, 48

nəticəsi idi. Baqratın Kaxetinin üsyançı feodalları ilə birləşib Qağiki devirmək planı baş tutmadı. Eyni şəkildə Baqrata qarşı da Liparitin mübarizəsinə də kaxlar, Şəki ordusu yardım edirdi. Gürcü mənbəsində Ateni qalasının mühasirəsində Baqrata qarşı Liparitə yardım edən qüvvələr sırasında bizanslılarla yanaşı, kaxların da adı çəkilir[43].

1046-cı ildə Tiflis əmiri Cəfər ibn Əli vəfat edir. Cəfərin oğulları Mənsur və Əbulhica hakimiyyət uğrunda mübarizə etməyə başlayırlar. Daha doğrusu Cəfərin kiçik oğlu Əbulhica əmir taxtına qeyri-qanuni göz dikir. Şəhərdə hakimiyyət şəhər ağsaqqalları – rəisləri şurasının əlinə keçdi. Sülalə daxili münaqişə şəraitində şəhər əhalisi başa düşürdü ki, IV Baqrat vəziyyəti öz xeyrinə dəyərləndirəcək və şəhər hücum edəcək. Sonuncu mühasirədə çox zəifləyən və tamamilə xristian qüvvələrinin mühasirəsinə düşən şəhər əhalisi belə şəraitdə müdafiənin mümkünsüzlüyünü görür, şəhərdə dağıntılara və iqtisadi həyatın məhv olmasına yol vermək istəmirdilər. Əmir Cəfərin ölümündən az sonra II Ləşkəri onun qızı ilə evlənmişdi[44]. Gəncə bu vaxt səlcuq türklərinin mühasirəsində idi və II Ləşkəri şəhəri əldə saxlamaqdan ötrü inadla səlcuq türklərinə qarşı müqavimət göstərirdi. Məhz bu səbəbdən əmirlərlə qohumluq əlaqələri olmasına baxmayaraq daxili münaqişələrə və şəhərdəki vəziyyətə Tiflisə ən yaxın dövlət olan Şəddadilər müdaxilə edə bilmirlər. Baqrat şəhərə yaxınlaşan kimi Tiflisdən yeni nümayəndə heyəti Baqratın yanına gəldi[45]. Əsas səbəblərdən biri isə hakimiyyət uğrunda mübarizə aparan III Cəfərin övladlarından birinin IV Baqrata hakimiyyəti ələ keçirmək üçün müraciət etməsi ola bilərdi.

IV Baqrat şəhərə daxil oduqdan sonra şəhər əhalisi ona şəhərin açarlarını, əmir sarayını, çoxlu miqdarda pul təqdim etdilər. IV Baqrat şəhər qalası Daricelini, Skalkini və Tabor bürclərini tutur və orada qarnizonlarını yerləşdirir. İsanidə - şəhərin sol sahilində yaşayanlar isə körpünü dağıdaraq Baqrata təslim olmadılar. Bunlar yəqin ki, şəhər ağsaqqallarının fikri ilə razılaşmayan şəhər idarəçiləri və ya IV Baqrata müttəfiq olmayan III Cəfərin digər oğlu idi. Elə bu ərəfədə şəhərin sol sahilində Şəki məliki Qağik peyda olur. Güman ki, Cəfər ibn Əlinin Baqrata tabe olmaq istəməyən digər oğlu və onu dəstəkləyən xalq, Şəddadi əmiri Ləşkəri şəhərə yardım edə bilmədikdə Baqrata qarşı yardım üçün Şəkiyə üz tutmuş, Tiflis

[43] *Летопись Картли*, 66-67; *Матиане Картлиса*, 48
[44] Vəlixanlı (red.), *Azərbaycan tarixi:* 7 cilddə. II cild, 344
[45] *Летопись Картли*, 68; Brosset, *Gürcistan Tarihi,* 280

uğrunda Şəki ilə Baqratın arasındakı anlaşmazlığı bildikləri üçün onu köməyə çağırmışdılar. Gürcü mənbəsinə görə Baqrat İsani düzünə girərkən Qağik və kaxlılar onunla sülh bağlayar və öz itaətlərini bildirirlər[46]. Lakin, Qağikin əziyyət çəkərək bu qədər uzun məsafəni qoşunla birlikdə müharibəsiz Baqrata itaət etmək üçün gəlməsi inandırıcı deyil. Güman ki, gürcü mənbəsinin məqsədi Qağikin uğuruna kölgə salmaq olmuşdur. Əslində isə Qağik istədiyinə nail olmuş, Baqrat solsahil Tiflisə olan iddialardan əl çəkmişdir. Qağikin sayəsində Tiflisin sol sahilində müsəlmanların müstəqil hakimiyyəti qorunub saxlanmışdı. Bu hadisədən bir neçə ay sonra Qağikin göndərdiyi qoşunların eristav Liparitin başçılığı altında IV Baqrata ciddi zərbələr vurması da Qağikin IV Baqratdan hər hansı asılılığının olmadığını göstərir[47]. Sol sahil Tiflisin mühasirəsindən Baqratı çəkindirən əsas səbəblərdən biri Qağikin İsanidə peyda olması ilə yanaşı, sağ sahil Tiflis əhalisinin şəhəri dağıtmamaq istəyi və tələbi idi.

Baqrat Tiflisdə ikən Liparit yenidən ayağa qalxır. Qağik Liparitlə ittifaqa sadiq qalmışdı və Liparitin əsas qüvvəsini Şəki məlikliyindən kaxlılar təşkil edirdi. Poka qalasında Baqrata qalib gələrkən məhz kaxlılardan ibarət ordu Liparitin əsas zərbə qüvvəsi idi. Liparit bu dəfə də Baqratın qardaşı Demetredən istifadə edirdi, lakin, döyüşlər gedərkən Demetre vəfat edir. Baqrat Liparitin yanına-Xovleyə gəlib sülh təklif etsə də Liparit Baqratı qəbul etmir və Baqrat məcbur olub Abxaziyaya gedir. Bu görüşdən sonra yenidən kaxların yardımı ilə Arkis-Sixe yaxınlığında Liparit qalib gəlir, Liparit eyni zamanda Artanuc qalasını ələ keçirir və Bizansın maraqlarına uyğun Dvin ətrafına hücum edir[48]. 1046-1048-ci illərdə olan bütün bu hadisələrdə, döyüşlərdə Şəki məliyi Qağik birbaşa özü iştirak etməsə də, döyüşçüləri, qoşunları ilə daim Lipariti dəstəkləyir, ittifaqa sadiq qalır. Liparit 1048-ci ildə Bizans tərəfdə vuruşduğu Basiani-Pasinlər döyüşündə səlcuqlulara əsir düşür və Xorasana aparılır[49]. 1051-ci ildə əsirlikdən geri qayıdan kimi Liparit Baqratın azyaşlı oğlu Georgini çar elan edir, özü isə Georginin tərbiyəçisi olur. Baqrat isə 1054-1057-ci illər arasında Bizansda qalır. Lakin, 1058-ci ildə Liparitin

---

46 Brosset, *Gürcistan Tarihi*, 280-281; *Летопись Картли*, 68; *Матиане Картлиса*, 49-50

47 Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 148-149; Mahmudov (elmi red.): *Şəki: ən qədim zamanlardan günümüzədək,* 109

48 *Летопись Картли*, 68-70; *Матиане Картлиса,* 49-51

49 İbn əl-Əsir, *Əl-Kamil fi-t Tarix*, 8-ci cild. (Beyrut, 1987), 283; *İbn əl-Əsir. Əl-Kamil Fi-t-Tarix.* Tərc. M. Əfəndizadə, 141; Brosset, *Gürcistan Tarihi,* 283; *Всеобщая История Вардана Великого.* Пер. Н Эмин. (Москва, 1861), 124-125

hakimiyyətindən narazı olan kalmaxlı Sula və mesxlər Lipariti və oğlu İvaneni əsir tuturlar. Liparitin digər oğlu Niania bizanslıların yanına qaçır[50]. IV Baqrat öz hakimiyyətini möhkəmləndirir. Şəki isə Abxaz-Kartli çarlığına qarşı özünün ən əhəmiyyətli müttəfiqindən – Liparitdən məhrum olur.

Bu dövrdə Şəkinin qərbində müəyyən sakitlik yaransa da, şərqində Şirvanşahlarla münasibəti gərgin olaraq qalmaqda idi. 1053-cü ildə Şirvanşah Sallar ibni Yəzid Maluq qalasını tutur, buraya qarnizon yerləşdirir. Bu qalanın ətrafında şəhər saldırır, bura əhali köçürdür və Cümə məscidi tikdirir[51].

Şəddadilər dövlətində II Ləşkəri (1034-1049) vəfat etdikdən sonra hakimiyyətə oğlu Ənuşirəvan gəlir. Onun dövründə hakimiyyət hacib Əbu Mənsurun əlində cəmləşmişdi. Bu hacib dövlətinin zəifliyini görərək sərkərdələrlə və qala mühafizəçiləri ilə razılaşıb Ənuşirəvana müraciət edirlər ki, Tatiyan (Dadian), Mujkank (və ya Muxkank) və əl-Bəyda (Ağcaqala) qalalarını Şəkinin hakiminə, Kirmstan (və ya Kirstan) qalasını didolara (müsəlman olmayan digər Qafqaz xalqlarına), Girdiman qalasını Abxazlara (burada Baqrata), əl-Rustaqı (Rustavi) Ruma-Bizansa vermək lazımdır ki, Arranı idarə edə bilsinlər[52]. Şəddadilərin Şəkiyə qarşı üç qala tikməsi və bu qalaları Şəkiyə verməsi əlbəttə ki, bu dövrdə Şəkinin qüdrətindən xəbər verir[53].

Ənuşirəvanın bu hərəkəti Şəddadilər dövlətində yaşayan xalqı qəzəbləndirir. Onlar Ənuşirəvanı hakimiyyətdən uzaqlaşdıraraq yerinə Əbul Əsvar Şavuru (1049-1067) gətirirlər. Münəccimbaşıya əsasən 1053-cü ildə Şavur Xazariyyadan Bəsrə qalasını alır[54]. Ərazinin Şəkidə yerləşməsi o qədər də şübhəli deyil. Bütün bu olanlar Şəkinin region xristian dövlətləri ilə olduğu kimi, müsəlman dövlətləri ilə də mürəkkəb bir münasibət içində olduğunu sübut edirdi.

## 3. Şəki Məlikliyi – Səlcuqlu Münasibətləri

Vaxuşti Baqrationi qeyd edir ki, Qağik 1058-ci ildə vəfat edir və onun yerinə hakimiyyətə onun oğlu I Axsitan (1058-1084) keçir (Gürcü mənbələrində Axsartan). I Axsitandan kifayət qədər həm müsəlman mənbələri, həm də gürcü mənbələri

---

[50] Brosset, *Gürcistan Tarihi,* 285; *Летопись Картли*, 70-71
[51] Минорский, *История Ширвана и Дербенда*, c.56
[52] Minorsky, *Studies*, 18
[53] Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 151
[54] Minorsky, *Studies*, 18-19

məlumat vermişlər. I Axsitanın hakimiyyət dövrü regionda Səlcuq türklərinin yürüşlərinin genişlənməsi ilə eyni zamana təsadüf edir.

1062-ci ildə Tiflis əyanlarından bir qrupu Əbul Əsvar Şavurun yanına gələrək qalanı təslim etmələri üçün ondan idarəçi tələb edirlər. Lakin, Şavurun vəziri Bəxtiyar ibn Salman Şavura Tiflis ağsaqqalları ilə razılaşmamağı məsləhət gördü. Belə ki, bu IV Baqratla həm yeni münaqişələrə səbəb ola bilərdi. Eyni zamanda Bəxtiyar ibn Salman qeyd edir ki, bu Şavura heç bir xeyir gətirmədən insan və mülk itkisinə səbəb olacaq. Şavur bu məsləhətdən sonra şəhər açarlarını ağsaqqallara geri qaytarır. Belə olan halda Tiflis ağsaqqalları Şəki məliki I Axsitana (1058-1084) müraciət edirlər. Axsitan əvvəlcə bu təklifi qəbul edir, tiflislilərə hədiyyələr (cəvaiz) verir və onları yola salır. 1048-ci ildə Baqratın Tiflisi müdafiəsi zamanı Şəki məliki Qağikin İsanini müdafiə etməsindən fərqli olaraq siyasi vəziyyəti fərqli dəyərləndirən Axsitan qala açarlarını çoxlu miqdarda pula Bizans (Rum) hökmdarına satır. "Rum hökmdarı isə dərhal buraya öz qarnizonunu göndərir və onları insan, silah, azuqə ilə təmin edir. Onlara dağda yolları genişləndirməyi tapşırır ki, İslam ölkələrinə Tiflis üzərindən inancsızların keçmələri, hücum etmələri asanlaşsın"[55]. Elə həmin il alanlar Dəryal keçidini aşaraq Şədaddilər dövlətinin paytaxtı Gəncə şəhəri üzərinə yürüş edirlər.

Nə Şavur, nə də Axsitan Tiflis qalasına sahib olmaq iqtidarında olmasa da Şəddadi əmiri Əbul Əsvar Şavurdan fərqli olaraq, I Axsitan yaranmış əlverişli şəraitdən öz ölkəsi üçün mümkün olan optimal variantda istifadə edə bilmişdi[56]. Münəccimbaşında Tiflis şəhərinin Axsitan tərəfindən Rum-Bizans hökmdarına satılmaqla bağlı söylədiyi bu iddia və burada Baqratın adının çəkilməməsi çox yəqin ki, müəyyən dərəcədə IV Baqratın bu dövrdə Rumdan/Bizansdan asılı olduğunu göstərirmiş. Qalanın Ruma-Bizansa satılması yaxşı nəticələnmədi. Münəccimbaşının məlumatına görə 1062-ci ildəki alanların yürüşündə Aranda çoxlu insan öldürülmüş, 20 min nəfər uşaq, qadın və kişi əsir ələ keçirilmişdi. Şavur bundan sonra 1063-cü ildə məcbur olub Gəncənin şəhər qırağında möhkəm qala divarları tikdirmişdi[57]. Həm alanların Şəddadilər üzərinə yürüşü, həm də IV

[55] Minorsky, *Studies*, 20
[56] Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 153
[57] Minorsky, *Studies*, 20

Baqratın müsəlmanlara qarşı fəallaşması Alp Arslanı Qafqaza yürüş etməyə məcbur etdi.

1064/65-ci illərdə Alp Arslan müsəlmanları rahatlamaq, xristianların müsəlman ölkələri üzərinə yürüşlərini dayandırmaq üçün Kartliyə yürüş etdi. Sürməli, Səfidşəhr (Ağcaqala), Axalkələk qalalarını alır[58], naticədə Kəngər, Şavşet, Klarcet, Tao, Trialetini səlcuqlular tuturlar. Sonra IV Baqratı nəzarət altında saxlamaq üçün ona bacısı qızı ilə evlənmək fikrinin olduğunu bildirir. Daha sonra Anini tutur və buranın idarəsini Əbul Əsvar Şavurun oğlu Mənüçöhrə verir. IV Baqrat Alp Arslanın arzusunu yerinə yetirmək üçün öz bacısı qızını Kvirikedən istədi (eyni zamanda Samşvilde çarı Kvirikenin qardaşı qızı idi). Kvirike razı olmadıqda Baqrat Samşvildeyə qoşun yeritdi, Samşvildeni özünə tabe etdi və qızı Alp Arslana göndərdi. Öz qızı Martanı isə Bizans sarayına ərə verir[59].

Əvvəlcə Gəncəyə gələn Alp Arslan burada Şavurun oğlu II Fəzlun (1067-1073) tərəfindən çox qiymətli hədiyyələrlə qarşılanır. O dövrdə belə hədiyyələr yalnız Abbasi xəlifələrinə verilirdi. Alp Arslan II Fəzlunun bu comərdliyini lazımınca qiymətləndirir. Əvvəlcə o, Abxaz kralı IV Baqratın qızından boşanaraq (bu yəqin ki, Baqratın bacısı qızı olmalıdır – R.M.) onu II Fəzluna verir. Bundan əlavə Tiflis əmiri Cəfər də Alp Arslanı görmək üçün Gəncəyə gələrək ona bir çox hədiyyələr təqdim etmişdi[60]. Bu şəxsin kimliyi məlum deyil. Çünki, bu dövrdə Tiflisdə ikihakimiyyətlilik var idi. Onların ardınca Gəncəyə Şirvanşah Fəriburz ibn Salar (1063-1096) gəlir və hədiyyələrini Alp Arslana təqdim edərək sultana bağlılığını bildirir. Bundan sonra 1067-ci ilin noyabrında (məhərrəm 460) Şəki, Xəzran və Abxaz üzərinə yürüşə başlayır[61].

Sultan Alp Arslanı Ereti-Şəkidə Şəki məliyi I Axsitan qarşılayır. Əxbar əd-Daulət əs-Səlcuqiyyədə hadisələr belə təsvir edilir: "Öndə gedən qüvvəyə rəhbərlik edən Sav Təkin idi. Ər-Rumun ən cəsur döyüşçüləri franklar (ehtimalla muzdlu varyaq qüvvələr) və Şəkidən olan piyada döyüşçülər idi (Rum deməklə isə Sədrəddin yəqin ki, ya səhvən onların Bizansın tərkibində olduğunu bilir, ya da

[58] Садраддин Али ал-Хусайни. *Ахбар ад-Даулат ас-Селджукийа.* Изд. текста, пер., введ., примечания и приложения З. М. Буниятова. (Москва: Изд. «Наука», 1980), 49-50
[59] Brosset, *Gürcistan Tarihi,* 288-289; Лордкипанидзе, *История Грузии XI – нач. XIII вв.*, 82; *Летопись Картли*, 72-73; *Матиане Картлиса,* 54-55
[60] Bedirhan Yaşar, *Kafkasya ve Büyük Selçuklu Devletinin Kafkasya Politikası*. Doktora tezi, (Konya: Selçuk Üniversitesi, Sosyal Bilimler Enstitüsü, 1999), 105
[61] Minorsky, *Studies*, 23

dini inanclarını-pravoslavlığı nəzərdə tuturmuş[62]). Şəki Axsitanın hakimlik etdiyi vilayətdir. Şəki vilayəti Rumdan və Abxazdan olan quldurların gizləndiyi meşə və dərələrlə doludur. Sultan neftatanlara meşələri yandırmağı əmr etdi və onlar bu əmri yerinə yetirdilər. Sultan meşələrin arasında mis mıxlarla bir – birinə bənd edilmiş dəmir lövhələrdən (atbak) tikilmiş iki qala gördü. Lakin, onlara at belində yaxınlaşmaq mümkün deyildi və sultan onlara baxaraq buranı tutmağın mümkün olmaması ilə bağlı ümidsizliyə düşdü. Bu iki qalanın hakimi ilə Şəki məliki arasında köhnə ədavət var idi. Buna görə də qalaların hakimi sultanın yanına gəldi, İslamı qəbul etdi və hər iki qalanı təslim etdi"[63]. Məhz bundan sonra Alp Arslan Şəkinin içərilərinə doğru hərəkət edə bilir.[64]

Bundan sonra Alp Arslanın sarayına "frankların rəhbəri (məlik əl-fərənc)" və Şəkinin məliyi Axsitan gəldi. Mənbədə diqqəti çəkən məqam franklarla bağlıdır. Z.M.Bünyadovun fikrinə görə, franklar deyəndə yəqin ki, IV Baqratın Səyyah İnqvarın 3000 nəfərlik muzdlu varyaqları nəzərdə tutulurdu[65]. Lakin, burada Axsitanın bir-başa rəhbərliyindən söhbət gedir. Güman ki, Axsitanın özünün də belə bir muzdlu qoşunu var imiş. Bunu onun ölkədəki bir çox qala rəhbərlərinə nəzarət edə bilməməsi ilə əlaqələndirmək olar.

Axsitan sultanın yanına İslam dinini qəbul etmək üçün gəldiyini bildirdi. Bu istək qarşısında Alp Arslan taxtından enərək Axsitanla görüşdü, onu qucaqladı və başından öpdü. Axsitan kəlmeyi – şəhadəti gətirdikdən sonra sultan onu qiymətli hədiyyələrlə mükafatlandırır və hörmət əlaməti olaraq öz atı üzərində oturdur. Eyni zamanda Alp Arslan ona şəriəti, namazı (duaları) və Quran surələrini öyrətməsi üçün fəqih (fiqh elmini-İslam qaydalarını bilən) göndərir. Ona sünnət olunmasını əmr edir və bu vilayətlər üzərində hakimiyyəti ona tapşırır[66].

İslam dini şəkililərə əslində heç bu vaxta kimi də yad deyildi. Burada idarəçi elita xristian olsa da əhali arasında xeyli, çox sayda müsəlman var idi, onların Şəki məlikliyindəki Xayzan, Təbla, Şəki kimi iri şəhərlərində özünə məxsus bazarları və cameləri var idi. İbni Rustənin verdiyi məlumata görə X əsrdə Xayzanda Şəki hökmdarı Azərnərsə cümə günü müsəlmanlarla, şənbə günü yəhudilərlə, bazar

[62] Садраддин Али ал-Хусайни. *Ахбар,* 192; Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 159
[63] Садраддин Али ал-Хусайни. *Ахбар*, 55
[64] Mahmudov (elmi red.), *Şəki: ən qədim zamanlardan günümüzədək*, 112
[65] Садраддин Али ал-Хусайни. *Ахбар*, 192
[66] Садраддин Али ал-Хусайни. *Ахбар*, 55

günü xristianlarla ibadət edir[67]. Bundan əlavə əl-Müqəddəsi Şəki məlikliyinin baş şəhəri olan Şəki haqqında qeyd edir. "Şəkki –düzənlikdə şəhərdir. Əhalisinin çoxu xristiandır. Came məscid müsəlmanların bazar meydanındadır."[68]. Eyni sözlər Şəki məlikliyinin böyük şəhərlərindən Təbla-Telavi haqqında da təkrarlanır: "Burada müsəlmanların 500 evi vardır. Əhalisinin əksəriyyəti xristiandır. Səfalı yerdir."[69]. Bütün bu məlumatlar Şəki elitasının İslamı nə üçün gürcü elitasından fərqli olaraq İslamı rahat qəbul etdiklərinin açıqlamasıdır. Lakin, Axsitan gələcəkdə bir dəfə də Məlikşahın yanında müsəlman olacaqdı. Ola bilər ki, müsəlman olduğunu isbat etmək məcburiyyətində qalmışdı. I Axsitan səlcuqların yürüşü nəticəsində müdafiəçiləri tərəfindən tərk olunmuş qalalarını geri almaqla bərabər, ölkəsini labüd dağıntılardan, qətl və qarətlərdən qoruya bildi.

Ümumiyyətlə səlcuqlu türklərinin ağalığı dövründə Azərbaycanın şimal-qərb torpaqlarında İslam dininin yayılması və möhkəmlənməsi istiqamətində ciddi işlər görülmüşdü. Məhz bu dövrdə sultan Alp Arslanın vəziri, çox saylı mədrəsələr tikdirmiş Nizam əl-Mülkün şəxsi vəsaiti ilə Saxur kəndində məşhur mədrəsənin əsası qoyulmuşdur[70].

Bundan sonra Alp Arslan Abxaz torpaqlarına doğru hərəkət edir. Gürcü mənbəsinin verdiyi məlumata görə ona erməni knyazı Kvirike, Tiflis əmiri və Axsitan qoşulur[71]. Onlar Caçvidən (Araqvi çayının sol sahilində yer) keçərək Kartliyə daxil oldular[72]. Buradan bu məlum olur ki, Araqvi çayının axarları bu dövrdə Axsitana məxsus imiş.

Əxbarın verdiyi məlumata əsasən Alp Arslan Gürcüstan ətrafında 5 ay qalır[73]. Həm Tiflis əmirliyini, həm də ələ keçirdiyi xristian torpaqlarını Alp Arslan Şəddadi II Fəzl ibn Şavurun idarəçiliyinə tapşırır. Axsitanın da bu yürüşdən sonra mövqeyinin gücləndiyi müşahidə edilir.

---

67 İbn Rusta, Əbu Ali Əhməd ibn Amr. *Kitab əl-A'laq ən-nəfisə.* Leyden: Bril, 147; *Сведения арабских писателей о Кавказе, Армении и Адербейджане.* III. Ибн Хордадбех. С 1-21; IV. Кудама. С. 23-34; V. Ибн Руста. С. 35-54; VI. Ал-Якуби. 55-63; Перевод и примечания Н.А.Караулова // (СМОМПК. вып. 32. Тифлис: 1903), 49
68 Əl-Müqəddəsi, Şəmsəddin Əbi Abdullah Muhamməd bin Ahməd bin Əbi Bəkr. *Əhsən ət-təqasim fi mə'rifəti-l əqalim.* (Leyden: BGA, E.J.Brill. 1967), 376; Vəlixanlı, *IX-XII əsr ərəb*, 131
69 Əl-Müqəddəsi, *Əhsən ət-təqasim*, 376; Vəlixanlı, *IX-XII əsr ərəb,* 132
70 Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 239
71 *Летопись Картли*, 73; *Матиане Картлиса*, 55
72 Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 160
73 Садраддин Али ал-Хусайни. *Ахбар*, 56

Tiflisdə möhkəmlənən II Fəzlun ətraf ərazilərdə möhkəmlənmək məqsədi ilə 1068-ci il avqust ayından (ramazan) etibarən yürüşlər həyata keçirməyə başlayır[74]. IV Baqrat Alp Arslanın uzaqda olmasından istifadə edərək 1069-cu ilin yazında Fəzluna qarşı hərəkət etdi. Silkan dağları yaxınlığında Muxnarda (Msxetadan şimalda) baş verən döyüşdə Fəzlun məğlub olur və qaçmağa başlayır. Erso vilayətində əsir götürülən II Fəzlunu Jaleti qalasının sahibi İsak Toloşolisdzenin yanına aparırlar[75]. Bu əsir götürülməni Münəccimbaşı tamamilə Axsitanın bir xəyanəti kimi qələmə verir[76]. Buralar Şəki məlikliyinə tabe olduğundan İsak onu Telaviyə - Axsitanın yanına gətirir. IV Baqratın təqibindən ehtiyat edən Axsitan isə onu cəld Xornabuca gətirir. Bu vaxt Xornabuc şəhəri Fəzluna tabe idi. Fəzlunu Xornabucun tabeçilərinə göstərən Axsitan Xornabucu təslim ala bilir. Eyni üsulla əvvəl-başdan Şəddadilərə məxsus olan Aradet qalasını da Şəki məlikliyinə birləşdirməyə nail olur. Baqrat isə yaranmış şəraitdən maksimum yararlanmağa çalışdı. O, Fəzlunu əldən çıxarmaqdan qorxaraq Şəki məlikliyinə Boçorma və Ucarma qalalarını geri qaytardı. Baqrat isə Fəzlundan istifadə edərək Tiflis yaxınlığındakı Rustavi, Parsxisi, Aqarani, Qriqol-Tsminda və Qavazani qalalarını ələ keçirir[77]. Onu dirəyə bağlayıb Tiflisə apardılar, lakin, buraya çox çətinliklə girdilər. Çünki, Fəzlunun yoxluğunda kimsə özünü əmir elan etmişdi və müqavimət göstərirdi. Gürcü mənbəsi qeyd edir ki, Baqrat Tiflisi özündə saxlamadı, o, Dumanisdə olan əmir Sitilarabı tapdı və Tiflis şəhərinin idarəsini ona tapşırdı[78].

Şəki məlikliyi bu dövrdə Şirvanşahlar dövlətinin daxili işlərinə də müdaxilə edirdi. "Şirvan və Dərbənd tarixi"ndən məlum olur ki, Şirvanşah Fəriburz ibn Salların (1063-1094) hakimiyyət uğrunda mübarizə apardığı qardaşı Qucdaham ibn Sallar məhz Şəkidə özünə sığınacaq tapmışdı. 1072-ci ildə Qucdaham vəfat edir və onun nəşini Şəkidən Yəzidiyyəyə-Şamaxıya apararaq dəfn edirlər[79]. Yəqin ki, buna görə Fəriburz Şəddadi Fəzl ibn Şavurla ittifaq bağlayaraq Maluq qalasını mühasirəyə alırlar, Axsitanın əlindən buranı alırlar və qalanı son daşına qədər

[74] Minorsky, *Studies*, 23
[75] Brosset, *Gürcistan Tarihi,* 292-293; *Летопись Картли*, 75; *Матиане Картлиса*, 56-57
[76] Minorsky, *Studies*, 23
[77] Minorsky, *Studies*, 31
[78] *Летопись Картли*, 75
[79] Минорский, *История Ширвана и Дербенда*, 62

dağıdırlar[80]. Bu qalanın dağıdılmasının səbəbi yəqin ki, şəkili I Axsitanın bura əhəmiyyət verməsi və bu qalanın yenidən Axsitanın əlinə keçə biləcəyi ehtimalı idi[81].

Axsitan qonşu Abxaz-Kartli çarlığının da işlərinə fəal müdaxilə edirdi. Belə ki, 1072-ci ildə IV Baqratın vəfatından sonra yerinə taxta çıxan oğlu II Georginin (1072-1089) hakimiyyətinin ilk illərində ölkə daxilində parçalanma meylləri baş qaldırır. II Georgi məcbur qalır ki, İvaneyə Samşvildeni, onun oğlu Liparitə Losobannini, kaxlara isə Rustavini verir. Beləliklə, Rustavi qalası I Axsitanın tabeçiliyinə keçir. İvane növbəti dəfə üsyan qaldırdıqda Axsitan onu dəstəkləmir. Əksinə Georgi Axsitanla yaxınlaşır. Nəticədə İvane məcbur olub cənuba qaçır. Axsitan isə Losobanni qalasını da İvanenin oğlu Liparitdən alır və öz mülklərinə qatır. İvane də Kldekar və Samşvildeni saxlamaq şərti ilə II Georgi ilə barışır[82]. Məhz bu dövrləri Şəki məliyi Axsitanın bölgədə ən güclü dövrləri hesab etmək olar. Çünki, Şəddadilərin daxilində də bu dövrlərdə problemlər var idi. H.466/1073-1074-cü illərdə Şəddadi II Fəzlunun oğlu III Fəzlun atasına qarşı çıxaraq, onu hakimiyyətdən uzaqlaşdırdı və ölkənin idarəsini əlinə almışdı[83]. Səlcuqlular bölgəyə idarəni Şəddadilər vasitəsi ilə edirdilər deyə dolayısı ilə bölgədə səlcuqluların nüfuzu zəifləmişdi. Alp Arslanın vəfatından sonra Şəki məliyi Axsitanın da səlcuqlulardan uzaqlaşdığı müşahidə edilir[84]. Belə ki, Kldekar eristavı İvane 1074-cü ildə yenidən Abxaz-Kartli çarı II Georgiyə qarşı üsyan qaldırır. Gürcüləri Qaqi qalasından çıxarıb qalanı Şəddadi II Fəzluna satır[85]. Əvvəla, Şəki məlikliyi Kldekar eristavları ilə ittifaqı pozduğu üçün II Georginin onlardan alıb I Axsitana verdiyi qalaları itirmək təhlükəsi ilə üzləşdilər. İkincisi, İvanenin Şəddadilərlə, dolayısı ilə səlcuqlularla yaxınlaşması I Axsitanı məcburən II Georgiylə yaxınlaşdırdı. Şəki məliyi bölgədə qazandığı üstünlüyü Şəddadilərə güzəştə getmək istəmirdi. Amma, Səlcuqlu sultanlı Məlikşahın (1072-1092) bölgəni idarə etməklə bağlı düşüncəsi tamamilə fərqli idi.

Gürcü mənbəsi bundan sonrakı hadisələr haqqında belə yazır: " ...və bütün xristianların dostu olmayan Məlikşah gəldi. İvane öz oğlu Lipariti onun yanına

80 Минорский, *История Ширвана и Дербенда*, 63; Minorsky, *Studies*, 24
81 Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 165
82 Brosset, *Gürcistan Tarihi,* 302- 303; *Летонисъ Картли*, 77
83 Minorsky, *Studies*, 24
84 Hacıəli, *Şimal–Qərbi Azərbaycan,* 167
85 Brosset, *Gürcistan Tarihi,* 303; *Летонисъ Картли*, 78

göndərdi, onu sultana tabe etdirdi. O sultanın yanında bir az vaxt keçirdib qaçdı. Sultan gəldi və Samşvildeyə daxil oldu, Samşvildeni tutdu və İvane öz xanımı ilə, nəvələri ilə, bütün aznaurları ailələri ilə əsir düşdü və sultan Samşvilde qalasına sahib oldu. O, Kartlini boşaltdı, çoxlu qənimət yığdı və getdi. Gəncəni tutdu, bütün ölkəylə mübarizə etsin deyə Gəncədə 48 minlik qoşunla (bəzi mənbələrdə 40 minlik) sərkərdə (Saranq-Sav Təkin) qoydu. Fəzlun qalasında gizlənmişdi, lakin onu da tutdular"[86]. Bununla da 1075-ci ildə öz təbəələri sırasında güclü, qüdrətli dövlətin olmasını istəməyən Səlcuqilər Şəddadilər dövlətinə son qoymaq qərarına gəlirlər. Yuxarıdakı qaynaqda da qeyd edildiyi kimi göstərilən müqavimətə baxmayaraq, III Fəzlun, nəhayət, Arranın idarəsini sərkərdə Sav Təkinə təhvil verməli olur. Hakimiyyətdən kənar olunmuş III Fəzl ibn Fəzl ibn Şavur, az sonra isə onun atası II Fəzl ibn Şavur səlcuqlular tərəfindən əsir alınırlar, Xərək qalasında saxlanırlar. Şəddadilər süqut edir[87].

Bundan sonra Məlikşahın əmiri Arran və Şirvan valisi "Sərhang ul-Xas" əmir Sav Təkinin hərbi fəaliyyəti barədə gürcü mənbəsi belə bir məlumat verir: "Az bir vaxtdan sonra sərkərdə (Sav Təkin) Dəbil və Dumanis əmirlərinin dəstəyi ilə öz və Gəncə hərbi hissələrini yığdı. Georgi Yuxarı və Aşağı torpaqlarından bütün qoşunları ilə toplandı və kaxların məliki Axsitana müraciət etdi və bir-birlərinə yardım etdilər. ...Parsxisi yaxınlığında Alxaza (Sav Təkinə) hücum etdi və onu qaçmağa məcbur etdi: təqib etdi və məhv etdi. Gecə olduğu üçün sərkərdənin ordusunun qalan hissəsi xilas oldu. Çarlar çarı heç bir zərər görməyərək sülhlə öz ölkəsinə qayıtdı. Bundan sonra o, yunanlardan Anakopiya-Abxaziyanın baş qalasını və Klarcet, Şavşet, Cavaxet və Artaanidə (Ardahan) bir çox qalanı aldı. ...Bundan sonra Kari (Qars) şəhərini-qalanı və ölkəni tutdu, Karnifor və Vənəndi tutdu və oradan türkləri qaçmağa məcbur etdi"[88].

Bu hadisələr səlcuqluları daha kəskin addım atmağa məcbur edir, 1080-ci ildə Məlikşah artıq problemli bir hala düşən bu vəziyyəti tamamilə həll etmək məqsədi ilə gürcü qaynaqlarının "güclü əmir və möhkəm ox atan" dedikləri (Danişməndli Qazi Taylu) Əmir Əhməd idarəsində əhəmiyyətli bir ordunu Arrana göndərir. Gürcü çarını Kvelidə ağır məğlubiyyətə uğradan Əhməd daha sonra Qarsı

86 Brosset, *Gürcistan Tarihi,* 303; *Летопись Картли*, 78; *Матиане Картлиса*, 60
87 Minorsky, *Studies*, 25
88 Brosset, *Gürcistan Tarihi,* 304; *Летопись Картли,* 78; *Матиане Картлиса*, 60

mühasirəyə alır. Georgi isə əsir düşməkdən zorla qurtularaq Acarıstan yolu ilə Abxaziyaya qaçmaq məcburiyyətində qalır[89]. Səlcuqlu gücləri geri dönərkən yolda Bizans sərhədlərinə doğru səfərə çıxan türkmən bəylərindən Əbu Yaqub ilə əmir İsa Böri (gürcü mənbəsində hansısa İasi və Bujquş) və digər bəylərə rast gəlmiş və onlara belə müraciət etmişlər: "Bizansamı gedirsiniz? Budur gürcü eli, insansız və sərvətlərlə dolu bir ölkə!" Gürcü mənbəsinin qeydinə görə onlar bir anda yollarını dəyişdirdilər və yer üzünü çəyirtkə kimi tutdular. "İvan günündə Asisfor və Klarcet, Şavşet, Acariya, Samsxe, Kartli, Araqveti, Samikalako və Çkondidi türklərlə doldu. Bu ölkələrin bütün sakinləri öldürüldü və əsir edildi. Elə həmin gün onlar Kutaisi, Artanuci və Klarceti çöllüklərini yandırdılar. Qar düşənə qədər onlar buralarda qaldılar. Bu ilk və böyük türkləşmə dövrü (didi-turkoba) idi"[90].

Türklərlə heç cür mübarizə apara bilməyəcəyini başa düşən II Georgi öz məsləhətçiləri ilə şura quraraq Məlikşahın yanına getməyi qərara alırlar. 1082-ci ildə İsfahana gedən Georgi illik xərac vermək və lazım olanda hərbi yardım göstərmək şərti ilə sultana tabeçiliyini bildirdi. Xərac vaxtlı-vaxtında veriləcəkdi deyə Məlikşah da ölkədəki köçəri türkman oymaqlarını ölkədən çıxararaq geri qaytarmağa söz verdi. Bundan əlavə sultan Georgiyə Şəki məlikliyinin torpaqları olan Ereti və Kaxetinin də idarəsini tapşırdı. Lakin, II Georginin buraları tutmağa hərbi gücü yox idi deyə sultan ona hərbi qüvvə ilə də yardım göstərdi. Beləliklə, II Georgi səlcuqlu hərbi hissələrinin müşayiəti ilə geriyə qayıtdı. Bu ordu Kaxetiyaya girərək Vejini qalasını mühasirəyə aldı. Mühasirə uzanırdı, II Georginin yadına Acametdə ov ovlamaq düşdü, səlcuqlu ordusuna isə Sucetini və bütün İori hövzəsini hədiyyə etdi. Özü isə Lix dağlarını keçərək Abxaziyaya gəldi[91].

Bu məlumatlardan belə anlaşılır ki, II Georgi Kaxetiyanı idarə etmək qüdrətində və marağında deyildi. Sadəcə olaraq onun məqsədi rəqibi olan Şəki məlikliyini zəiflətmək və diqqəti Abxaziyadan uzaqlaşdırmaq idi. Onun Səlcuqlu dövlətinin paytaxtına səfəri əslində IV Baqratın dövründən etibarən xristian dünyasının siyasi həyatında fəal iştirak edən, xristian koalisiyasından-abxazların və kartvellərdən qurulmuş gənc bir dövlətin tamamilə məhv olmasının qarşısını

---

[89] Зетеишвили И. (Перевод). *"Житие царя царей Давида"*. Символ, 40 (1998), 276; Brosset, *Gürcistan Tarihi,* 307

[90] Brosset, *Gürcistan Tarihi,* 307; Гусейн-заде, *Сельджукская эпоха истории Кавказа*, (Москва, 2012), 80; Гусейн-заде Р.А. *Кавказ и Сельджуки*. (Баку, 2010), 81; Зетеишвили, *Житие царя царей Давида,* 277

[91] Зетеишвили, *Житие царя царей Давида,* 278; Brosset, *Gürcistan Tarihi,* 308-309

alır. Əgər bu səfər olmasaydı, çox güman ki, gürcü dövləti də Şərqi Anadoluda mövcud olan xırda erməni knyazlıqları kimi varlığını itirəcəkdi.

Burada diqqəti cəlb edən məqam Məlikşahın Alp Arslandan fərqli olaraq Axsitanla deyil, II Georgiylə yaxınlaşmasıdır. Yunis Nəsibli II Georginin bu dövrdə Məlikşahla görüşdüyü zaman İslam dinini qəbul etdiyini irəli sürür[92]. Əsas kimi o, "Çarlar çarı Davidin həyatı" əsərindəki bu hissəni əsas gətirir: "Xristianların xilası naminə ruhunu və qanını fəda etdi... Məlikşahın yanına getdi." Lakin, əsərin sonrakı hissəsindəki Məlikşahın xristianlığa münasibəti II Georginin müsəlman olması fikrini şübhə altına alır: "Məlikşah ...adil, xeyirxah, xristianlara sevgisi olan şəxs idi"[93].

Kaxetiya və Heretinin II Georgiyə verildiyini eşidən Şəki məliyi Axsitan gürcü mənbəsinin verdiyi məlumata görə Məlikşahın yanına gedərək ikinci dəfə İslamda olduğunu sübut etdi. Bununla da Kaxetiyanı və Eretini geri almağa nail oldu[94]. Əslində Axsitanın Alp Arslanın dövründə İslamı qəbul etdiyi məlumdur. Yəqin ki, onun Sav Təkinə qarşı Abxaz-Kartli çarı II Georginin yanında çıxış etməsi gürcülərin onun yenidən xristianlığa qayıtdığı kimi qəbul edilə bilərdi. Lakin, Axsitanın bu dövrdə II Georgiylə birgə çıxış etməsində əsas səbəb müstəqillik idi. Alp Arslanın dəstəyi ilə gücünü xeyli artıran Axsitan, Alp Arslanın ölümündən sonra Səlcuqlulardan uzaqlaşmağa və Səlcuq ağalığından yaxa qurtarmağa çalışırdı. Şəki hakimi qonşuluqda yerləşən Şəddadilər və Şirvanşahlar dövlətlərinin taleyini görür və Səlcuqlular imperiyasının Şəki məlikliyinin də müstəqil həyatı ilə razılaşmayacağını bilirdi[95]. Lakin, son mərhələdə o, yenə də sultanla şəxsən görüşür, itaətini bildirir və Səlcuqlu imperiyasının hakimiyyəti ilə razılaşmalı olur.[96] Gürcü mənbəsində onun İslamı qəbul etməsi qeydi sadəcə hələ Alp Arslan dövründə müsəlman olduğunu Məlikşaha xatırlatması ola bilərdi. Lakin, Məlikşahla görüş nəticəsində avtoritetini yenidən bərpa edən Axsitan tezliklə vəfat edir. 1082-ci ildə hakimiyyətə çıxan oğlu IV Kvirike (1082-1102) də

---

[92] Nəsibli, Yunis. "*Türk dünyası və Gürcüstan XI əsrin son rübündə*", Bakı universitetinin xəbərləri jurnalı, Humanitar elmlər seriyası, 3 (2009), 125
[93] Brosset, *Gürcistan Tarihi,* 308; Зетеишвили, *Житие царя царей Давида,* 278
[94] Brosset, *Gürcistan Tarihi,* 308: Зетеишвили, *Житие царя царей Давида,* 278
[95] Hacıəli. *Şimal–Qərbi Azərbaycan,* 167
[96] Mahmudov (elmi red.), *Şəki: ən qədim zamanlardan günümüzədək,* 116

atasının siyasətindən uzaqlaşmayaraq Səlcuqlu imperiyasına tabe olmağı davam etdirirdi[97].

**Nəticə**

IX-X əsrdə Azərbaycan dövlətçiliyinin yenidən dirçəliş dövrü olmuşdur. Bu mənada məqalənin birinci hissəsində Şəki məlikliyinin yaranmasının Albaniya dövlətinin yenidən dirçəldilməsi, tarixi Albaniyanın müəyyən hissəsində keçmiş dövlətçiliyin bərpasının bir nümunəsi olduğunu müşahidə etmiş olduq. Bunun sübutu ilk hökmdarların mənbələrdə "Albaniya padşahı", "Albaniya çarlığını bərpa edənlər" kimi adlandırılmalarıdır. Dövlət eyni zamanda yarandığı ilk zamanlarda bölgədə yaranan müsəlman dövlətlərinə daha yaxın münasibətdə olmuşdur. Bunu dövlətdə mövcud müsəlman sayı, hökmdarların məscidlərdə ibadət etməsi, Sacilər və Salarilərə tabe olmaları, eyni zamanda X əsrin sonlarına kimi ətraf xristian diofizit dövlətlərdən fərqli olaraq idarəçi elitanın monofizit olması idi. Bu onları ətrafdakı xristian dövlətlərinə inteqrasiya etməsinə mane olurdu.

XI əsrin əvvəli Şəki girdiman tayfalarının idarə etdiyi Kaxeti ilə birləşərək ərazisini genişləndirir. Bu vaxt Şəkidə sülalə dəyişikliyi baş verir, xristianların mövqeyinin möhkəmlənməsi müşahidə edilir. Lakin, buna baxmayaraq dövlət eyni zamanda regional üstünlük uğrunda bölgənin xristian dövlətləri ilə də mübarizə aparır, müsəlman dövlətlərlə ittifaq qurur. Bu dövrdə məhz bu səbəblərdən Tiflis əmirliyinin labüd işğalının qarşısı alınmış, Şəki Tiflis əmirliyinin müstəqilliyinin qarantlarından biri olmuşdur.

XI əsrin II yarısında bölgədə Səlcuqlular göründükdən sonra Şəki hökmdarlarından Axsitan İslamı qəbul edir, Alp Arslanla birgə xristian ölkələri üzərinə yürüşə gedir. Müəyyən dövrdən sonra müsəlmanlar arasında etibarı zədələndiyi zaman yenidən Məlikşahın yanına gedərək bu etibarı bərpa etməyə çalışır. Bu mənada X əsrin əvvəlində Şəkinin dini-mədəni olaraq Azərbaycanın müsəlman dövlətləri ilə yarımçıq qalmış qovuşma prosesi sürətlənir.

Bütün bu olanlar onu göstərir ki, Şəki dövləti qurulduğundan bəri ərazi və dövlətçilik mənasında tarixi-irsi olaraq bir başa Azərbaycanla əlaqəli olmuşdur. Şəki sivilizasiya baxımından toqquşma nöqtəsində yerləşdiyindən bəzən

[97] Hacıəli. *Şimal–Qərbi Azərbaycan,* 169

müsəlman, bəzən xristian sivilizasiyasının üstün gəldiyi, bəzən hər iki sivilizasiyanın birlikdə mövcudluğu müşahidə edilir. XI əsrin II yarısı Səlcuqluların gəlişi ilə bu üstünlük tamamilə müsəlman sivilizasiyasına keçmişdir.

**Ədəbiyyat:**

Bedirhan, Yaşar. *Kafkasya ve Büyük Selçuklu Devletinin Kafkasya Politikası*. Konya: Selçuk Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Doktora tezi, 1999.

Bünyadov, Ziya. *Azərbaycan VII–IX əsrlərdə*. Bakı: Azərnəşr, 1989.

Əl-Məsudi, Əbu-l Həsən Əli ibn əl-Huseyn. *Muruc əz-Zəhəb və Məadin əl-Cəvahir.* 1. Cilt, Beyrut: əl-Məktəbət-ul Asriyyə, 2005.

Əl-Müqəddəsi, Şəmsəddin Əbi Abdullah Muhamməd bin Ahməd bin Əbi Bəkr. *Əhsən ət-təqasim fi mə'rifəti-l əqalim.* Leyden: BGA, E.J.Brill, 1967.

Brosset, Marie Felicite (Gürcüceden çev. ve notlar). *Gürcistan Tarihi (Eski Çağlardan 1212 Yılına Kadar).* trc. Hrand D. Andreasyan, Ankara: Türk tarih kurumu Basımevi, 2003.

Hacıəli, Şirinbəy. *Şimal–Qərbi Azərbaycan: İngiloylar. (I kitab: ən qədim zamanlardan XIII əsrin ortalarınadək).* Bakı: Təhsil nəşriyyatı, 2007.

İbn əl-Əsir, Əli İzzəddin əl-Cəzəri. *Əl-Kamil fi-t Tarix.* 8-ci cild. Beyrut, 1987.

İbn əl-Əsir, Əli İzzəddin əl-Cəzəri. *Əl-Kamil Fi-t-Tarix.* Tərc. M. Əfəndizadə. Bakı: Az. SSR EA Nəşr., 1959.

İbn Havqəl, Məhəmməd Əbu-l Qasim. *Kitab əl-masalik va-l-mamalik (Yollar və məmləkətlər kitabı)*. Leyden: E.J.Brill, 1872.

İbn Rusta, Əbu Ali Əhməd ibn Amr. *Kitab əl-A'laq ən-nəfisə. (Nəfis daş-qaşlar kitabı).* Leyden: Brill, 1892.

Mahmudov, Yaqub (elmi red.). *Şəki: ən qədim zamanlardan günümüzədək.* Bakı: Turxan NPB, 2020.

Minorsky, Vladimir. *Studies in Caucasian History.* Cambridge Oriental Series, No.6, London: Taylors Foreign Press, 1953.

Kalankatuklu, Moisey. *Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi.* Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur. Bakı: "Elm" nəşriyyatı, 1993.

Nəsibli, Yunis. "*Türk dünyası və Gürcüstan XI əsrin son rübündə*", Bakı universitetinin xəbərləri jurnalı, Humanitar elmlər seriyası, 3 (2009): 124-129.

Vəlixanlı, Nailə. *IX-XII əsr ərəb coğrafiyaşünas – səyyahları Azərbaycan haqqında*. Bakı: "Elm" nəşriyyatı, 1974.

Vəlixanlı, Nailə (red). *Azərbaycan tarixi*. 7 cilddə. 2. cild (III-XIII əsrin I rübü). Bakı: "Elm" nəşriyyatı, 1998.

Багратиони, Вахушти. *История царства Грузинского.* Пер., снабдил предисл., словарями и указат. Н. Е. Накашидзе. Тб.: Изд. «Мецниереба», 1976.

Гусейн-заде, Рауф. *Кавказ и Сельджуки.* Баку, 2010.

Гусейн-заде, Рауф. *Сельджукская эпоха истории Кавказа.* Москва, 2012.

Зетеишвили И. (Перевод). "*Житие царя царей Давида*". Символ, 40 (1998): 276-301.

*Летопись Картли.* Пер., введ. и примеч. Г.В. Цулая. Ред. кол.: З. Н. Алексидзе, В.Н. Габашвили, Н.С. Джанашиа и др. АН СССР, Ин-т этнографии, АН ГССР, Комис. по источникам истории Грузии. Тб.: Издательство «Мецниереба», Тип. АН ГССР, 1982.

Лордкипанидзе, Мария. *История Грузии XI – нач. XIII вв.* Тбилиси: Издательство «Мецниереба», 1974.

*Матиане Картлиса.* Перевод, введение и. и примеч. М.Д.Лордкипанидзе. Тбилиси, 1976.

Минорский, Владимир. *История Ширвана и Дербенда X – XI веков.* Москва: Изд. вост. лит., 1963.

Мкртумян, Гамлет. *Грузинское феодальное княжество Кахети в VIII-XI вв. и его взаимоотношения с Арменией.* Ереван, 1983.

Мусхелишвили, Давид. *Из исторической географии Восточной Грузии*. Тб: Изд. «Мецниереба». 1982.

Садраддин, Али ал-Хусайни. *Ахбар ад-Даулат ас-Селджукиййа.* Изд. текста, пер., введ., примечания и приложения З. М. Буниятова. Москва: Изд. «Наука», 1980.

*Сведения арабских писателей о Кавказе, Армении и Адербейджане.* III. Ибн Хордадбех. С 1-21; IV. Кудама. С. 23-34; V. Ибн Руста. С. 35-54; VI. Ал-Якуби. с. 55-63; Перевод и примечания Н.А.Караулова // СМОМПК. вып. 32. Тифлис: Тип. Канцелярия главноначальствующаго гражд. частию на Кавказе и К. Козловскаго, 1903.

Степанос Таронский. *Всеобщая история.* Пер. с арм. и об. Н.Эминым. Москва: Тип. Лазаревского Института Восточных языков, 1864.